# Yaranmışam, gərək sevim, sevilim...



*Barat VÜSAL,*
*Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri, Əməkdar İncəsənət xadimi*

### QIL KÖRPÜ

Haqqı gəzirsənsə də,
Yol - körpünün üstündə...
"Qıl körpü"nün üstündə!

Qorxma, diriləcəksən,
Öl! - körpünün üstündə,
"Qıl körpü"nün üstündə!

O Çiçəklər çiçəyi,
Gül körpünün üstündə,
"Qıl körpü"nün üstündə!

Kişisənsə ağlama,
Gül! - körpünün üstündə,
"Qıl körpü"nün üstündə!

Qılanda namazını,
Qıl, körpünün üstündə,
"Qıl körpü"nün üstündə!

"Ol" nə deməkmiş aşiq?
Ol, körpünün üstündə,
"Qıl körpü"nün üstündə!

Barat, şeirini oxu,
Gəl, körpünün üstündə,
"Qıl körpü"nün üstündə!

### ÜRƏK

İçindən ağlayır, gözündən gülür,
Yaralı ürəyi tanıyıram mən.
Allah bu ağlamaq, bu gülmək üçün
Yaradıb ürəyi, tanıyıram mən!

Baxan elə sanır nə dərdi vardır,
Guya elə ona nə gəldi, yardır.
Silahı ya sevgi, ya etibardır,
Yaraqlı ürəyi tanıyıram mən!

Nə qorxağa, nə də sinənə uyar,
Uyanda Xumara, Sənana uyar.
Yarar, ürəyini sinənə qoyar,
Yar adlı ürəyi tanıyıram mən!

Qanımızı qaraltmağa dadanıb,
Nəfəsləri daraltmağa dadanıb.
Özü kimi qaranəfəs adamın
Qaradı ürəyi... tanıyıram mən!

Deməyin, bilirəm haradan belə,
Çoxunu yaradıb yaradan belə.
Bağı susuz qoyub saraldan elə
Saraldır ürəyi... tanıyıram mən!

Bircə işi yoxdu taxtdan asılı,
Amma asılıdır, Haqqdan asılı!
Özü də ürəktək sapdan asılıb,
Baratı - ürəyi tanıyıram mən!

### MƏNİ İSTƏYƏNLƏR

Dönmədi öz sevdasından,
Kərəm məni istəyəndi.
İlahi eşqin yolunda
Ölən məni istəyəndi.

Kimsə sandı yolçu heçdi,
Guya ki, yolçuluq puçdu.
Üstündən Ağ atlı aşdı,
Bələn məni istəyəndi.

Qan istəyənə qan verər,
Haqqa canın qurban verər.
Xalqa, millətə can verər,
Ərən məni istəyəndi.

Daş var, suyun candaşıdı,
Su daşı yox, "mən" daşıdı.
İçimdə bir mən yaşayır,
O mən məni istəyəndi.

Kimsə düşdü elə oda,
Döndü Oba-Elə, oda.
Özgə deyil, elə o da,
Həmən məni istəyəndi.

Şair, baxma hamı yazır,
Yazan Əvvəl-Sonu yazır.
Nə deyirəm, onu yazır,
Qələm məni istəyəndi.

Dağlar başında döyüşür,
Minbir yaşında döyüşür.
Uçan daşı da döyüşür,
Qalam məni istəyəndi.

De, səs eşidib niyə sən,
Ay Barat, hay verməyəsən?
Qapım döyülür deyəsən,
Görən məni istəyəndi?!

### AĞILLI DƏLİ

Belə doğulmuşam anadan, belə,
Ağıllı dəliyəm, dəli ağıllı!
Belə-belə işlər, a nadan, belə...
Ağıllı dəliyəm, dəli ağıllı!

Bəlkə də Əvvəlim, Axırım budu,
Paxırım açılır... paxırım budu.
Neynim, olub-qopan ağılım budu,
Ağıllı dəliyəm, dəli ağıllı!

Dəli olduğuma dəlil ol, masam,
Sən də mənim kimi dəli ol, masam!
Mən şair olmazdım dəli olmasam,
Ağıllı dəliyəm, dəli ağıllı!

Məni nahaq dəli sanırlar, vallah,
Məni ağıllıtək tanırlar, vallah!
Ağıl paylayanam hamıya, vallah,
Ağıllı dəliyəm, dəli ağıllı!

Sən gün-saatıma gəlib bax, atam,
Mənə yarımçıqlar kaş ki, baxa tam!
Elə narahatam... elə rahatam...
Ağıllı dəliyəm, dəli ağıllı!

Məndən qeybət edib dost-tanışıma,
Dəlidir, dedilər, ondan danışma!
Yox, asan deyildir mənnən danışmaq,
Ağıllı dəliyəm, dəli ağıllı!

Bilir haqdır ölüm-itim, şairlər,
Şair varsa, ölüm nədi, şairlər?
Bircə şeir yazır bütün şairlər,
"Ağıllı dəliyəm, dəli ağıllı!"

### TOY ÇADIRI

Ömrü boyu oynamaqdan
Şair elə bil, doymayır.
Onun yolunda oynayır,
Bunun yolunda oynayır.

Qana batır, lalələnir,
Kama çatır, halələnir.
Vaxt olur ki, şələlənir,
Şələ belində, oynayır.

Ola bilmir heç vaxt zalım,
Olammır da, ağrın alım!
O qızların, bu qızların
Şirin dilində oynayır.

Bax bir bunun inadına,
Bir adına, min adına!
Qalxır Durna qanadına
Durna telində oynayır.

Dərd vərəni salmır dərdə,
Qurban olum belə mərdə.
Dözəmməyib, düşmənlə də
Hərdən zulumla oynayır.

Yanır nadan oynayanda,
Gülür adam oynayanda.
Eh, nə zaman oynayanda,
Adam halında oynayır.

Bir toya bax, qərib süzür,
Öz toyuna gəlib süzür.
Öz içinə girib süzür,
Çıxıb çölündə oynayır!

İlhamı ki, aşıb-daşdı,
Bir də gördün qanad açdı.
Yazdığı şeir şabaşdı,
Qələm əlində oynayır.

Dayanmadan toy çaldırır,
Qəlbi olur toy çadırı.
Ölməyir ha, qol qaldırıb,
Şair ölümlə oynayır!
Şair ölümdə oynayır?!

* * *

İçimdən səs gəlir:
"Sən kimsən? Sən nəsən?"
Olmamış kimisən,
Olmasan səndə Sən!

Mən insan sanılam,
Duyulam, anılam.
Kaş dönüb Sən olam,
Sən nə Sən! Sən nə Sən!

Həm varam, həm də yox,
Mən həqqəm, bəndə yox!
Sən ey mən, məndə yox,
Səndəsən! Səndəsən!

### Şair qardaşım, salam.

*Kredo qəzetinin bir neçə sayından ibarət göndərdiyin bağlamanı aldım, oxudum. Çox şad oldum. Ən çox ona görə ki, qəzeti yenidən nəşr edirsən. Bu böyük bir hünərdir. Sənə uğurlar diləyirəm və silsilə şeirlərimi göndərirəm. Mümkün olsa, yaxın nömrələrdən birində verərsiniz. Sən özündə və sözündə bölünmüş Vətənimizin bütövlüyünü yaşadırsan. Bu hər şeydən daha mühüm amildir.*

*Hörmətlə,*

*Barat VUSAL*

### YİYƏ

Bu gülün xətrinə dəyməyin belə,
Bu gülün yiyəsi gəlib çıxacaq.
Bu günü atmayın ayaq altına,
Bu günün yiyəsi gəlib çıxacaq.

Dəyməyin dəyəndə könlünə Sözün,
Getməyin üstünə bu keflə, Sözün.
Bu köhnə Qələmin, bu köhnə Sözün,
Şeirin yiyəsi gəlib çıxacaq.

Bilmək olmur ayın-günün işini,
Bir az təzələyim sənin huşunu...
Kül etməklədimi Simurq quşunu,
O külün yiyəsi gəlib çıxacaq.

Hər gün sanmayın ki, nəşə günüdür,
O din-imandamı nəşə üçündür?
Bir gün görəcəksiz məhşər günüdür,
Bu dinin yiyəsi gəlib çıxacaq.

Öldür, aradakı xətiri, öldür,
Öldür, haqq-sayı itirib öldür.
Öldür Baratı da götürüb öldür,
Ay ölüm, yiyəsi gəlib çıxacaq!

### KÖNÜL KİTABI

Qoymaram ki, budaqlana, qollana,
Öləlidir əzablarım içimdə.
Nə yaxşı ki, yaşayıram, ölmürəm,
Mən bir belə əsəblərin içində?!

Mən könlümün kitabını yazıram,
Mən ömrümün kitabını yazıram.
Mən özümün kitabımı yazıram,
Eşələnib kitabların içində!

Ucadandır... sözüm nida altdadır,
Köhnə süfrə, təzə nübar addadır.
Peyğəmbərtək üzüm niqab altdadır,
Mən gizliyəm niqabların içində!

Yaxşılığın əzabını çəkənəm,
Öz üstümə əsəbimi tökənəm.
Yamanlığın hesabını çəkənəm,
Hesabım var hesabların içində.

Yazacaqlar, pozacaqlar düşünüb,
Asacaqlar, kəsəcəklər başını.
Gəzəcəklər özünü yox, leşini,
Nə işin var qəssabların içində?

Yaranmışam, gərək sevim, sevilim,
Barat, ancaq bir Allahdır sevgilim.
Bir yönüm var, bir dilim var, bir dinim,
Məzhəbim yox məzhəblərin içində!

### QARA KİŞMİŞ

Necəsən ki, gecə fikir etməyə?
Gecə yol gedəsən səhərə kimi!
Başlayırtək Haqqı zikr etməyə,
Gecə yol gedəsən səhərə kimi!

Nələr gecikməyə, nələr gecikə,
Gəlməyə gələnlərələ, gecikə.
Səhər açılmaya, səhər gecikə,
Gecə yol gedəsən səhərə kimi!

Dəysə belə neçələri xətrinə,
Olanların, keçənlərin xətrinə...
Heç kimin yox, gecələrin xətrinə,
Gecə yol gedəsən səhərə kimi!

Gedəsən... gedəsən yolun bitməyə,
Yüyürüb arxandan ölüm çatmaya!
Bir ömür səhərə əlin yetməyə,
Gecə yol gedəsən səhərə kimi!

Gecə vergilidir, gecə vergili,
Çatmaz qüdrətinə neçə vergili.
Qoymaq istəyəsən necə, vergülü?
Gecə yol gedəsən səhərə kimi!

Barını yığşırıb dərirmiş kimi,
Dərini, dayazı görürmüş kimi,
Yarının qoynuna girirmiş kimi,
Gecə yol gedəsən səhərə kimi!

Çökəndə həyatın dibinə çöküb,
Tez üzə çıxasan... qəlbinə çəkib!
Qara kişmiş kimi cibinə töküb,
Gecə yol gedəsən səhərə kimi!

Ya sizə, ya da ki, bizə gedəntək,
Qonşuya kösöyə-közə gedəntək.
Bir gecə Misirə İsa gedəntək,
Gecə yol gedəsən səhərə kimi!

Şərq yaxındı, uzaq Batı, səhərə?
Çatmaqlamı uzaqbaşı səhərə?
Gecələr yol gedən çatır səhərə,
Gecə yol gedəsən səhərə kimi!

Gecə nədir, düşün bir az, gəl, Barat,
Yaşa Barat, yarat Barat, öl, Barat!
Bundan ötrü yaranmısan bil, Barat,
Gecə yol gedəsən səhərə kimi!

*(Davamı 7-ci səhifədə)*



*(Əvvəli 6-cı səhifədə)*

**YANIQ YERİ**

*3-4 yaşım olardı. Küləkli bir havaydı. Kibrit qutusunu götürüb xəlvət bir yerə - mal damının dalına çəkildim. Başladım bir-bir kibrit çöplərini yandırıb tökməyə. Arada biri sönməyibmiş, böyrümdə bambaziya finkamın üstə düşübmüş. Alov məni bürüdü. Külək də bir yandan yanğını gücləndirdi. Harayıma ilk olaraq anam yetdi. Sən demə, yanan təkcə mən deyiləmmiş...*

Uşaq vaxtı yanırdım, gördülər ki, adamlar,
Mən yanmağım cəhənnəm, arada anam yanır.

Yanan pal-paltarımı tez çıxartdı əynimdən,
Kömək et, tez ol, sən də, ay adam, anam yanır!

Az qaldı ki, unudub özümün yanmağımı,
Deyəm: yanan mənəmsə, haradan, anam yanır?!

Qışqırmaq istədim ki, bax, buranı söndürün,
Bax, buranı deyirəm... buradan anam yanır.

Sonra danışırdılar, haramdan yanmışamsa,
Hamı şahid olub ki, oradan anam yanır.

Fərhad niyə vurubmuş külüngünü başına,
Ölən Şirinmi, yoxsa qayada anam yanır?!

İllər keçdi, üstümdə qaldı o yanıq yeri,
Getdi çox ocağa da, pirə də... anam yanır.

Mənimi söndürürdü inləyib yuxuda da,
İstəyirdim qışqıram, oyadam... anam yanır!

Yanırdı olanda da, yanırdı öləndə də,
Sanmayın elə-belə... sıradan anam yanır.

Bir alov görən kimi özümü itirirəm,
Özümə qulaq asmır iradəm... anam yanır.

Haradan qulağıma körpə naləsi gəlsə,
Sanıram ki, hələ də orada anam yanır.

Bir dəfə deyir, doymur, min dəfə deyir, doymur,
Deyir, bu canım qurban Barata... anam yanır.

**SƏMƏNDƏR QUŞU**

Bir əlimdə qələmdi, bir əlimdə könüldü,
O Ölüm də könüldü, bu Olum da könüldü.
Bütün irəlilərdən irəlidə könüldü,
Mən hamıdan sondayam...
Mən hamıdan qabaqda!

Bu Sonun Əvvəlidi - o Əvvəlin Sonudu,
Bircə yer var, həmin yer düz Allahın yanıdı!
Səadət axtarırıq, elə budu, yəni bu:
Mən hamıdan sondayam - mən hamıdan qabaqda!

Ey bir deyil, oncalar, halı olun halımdan,
Qarışqa-qarıncalar, çıxmadım haqq yolundan.
Ey özündən sondalar, gəlin çatın dalımdan,
Mən hamıdan sondayam - mən hamıdan qabaqda!

Həmişə istəmişəm obanın, elin olum,
Həmişə istəmişəm olum, Əvvəlin olum.
Həmişə istəmişəm sonuncu ölüm olum,
Mən hamıdan sondayam - mən hamıdan qabaqda!

Ustayam, qartal kimi qanad açmaq işində,
Mahirəm, heççə nədən qana düşmək işində.
Mən köhnə əkinçiyəm, əkmək-biçmək işində,
Mən hamıdan sondayam - mən hamıdan qabaqda!

Lap Səməndər quşuna oxşayıb ölməkdə də,
Özümə oxşamaqda və sair olmaqda da,
Lap şeir yazmaqda da, lap şair olmaqda da,
Mən hamıdan sondayam - mən hamıdan qabaqda!

**BÜTÖVLÜYÜMÜZÜN ŞƏKLİ**

*Təbriz səfərində əvvəlcə yolumuz Xalxal şəhərindən düşdü. Dedilər ki, S.C.Pişəvərinin kəndi Zeyvə yaxınlığındadır. Getdik. Qohumlarından qardaşı oğlu Seyid Hüseyni oraqla taxıl biçdiyi yerdə tapdıq. Bu işdə bizə nəvəsi məktəbli Cavad bələdçilik etdi. Ayrılanda onun bizdən ayrılmaq istəmədiyi indiki kimi yadımdadır... Pişəvəri amalının, yolunun gələcək davamçısıtək.*

Tapıb Xalxal şəhəri, qədim Zeyvə kəndində,
Sağlam kökdən boy almış budaq Cavadı gördüm.
Daşlardan qaynayırdı, qayalardan sızırdı,
Yandım, içdim doyunca, bulaq Cavadı gördüm.

Oralar onunkuydu, buralar canındaydı,
Haralar onun deyil, haralar canındaydı.
Səttarxanın aldığı yaralar canındaydı,
Min yaşlı bir qocanı, uşaq Cavadı gördüm.

Təbrizi görmək üçün getdiyimiz bir gündə,
Qəfil yol peyda oldu yolumuzun üstündə.
Pöhrədən pöhrələndim Pişəvəri mülkündə,
Köhnə ocaq yerində ocaq Cavadı gördüm.

Bu vətən zaman-zaman nə odlara qalanmış,
Neçə haqqı tapdanıb əllərindən alınmış.
Cavadzadə nəslinin başı üstdən salınmış,
Yerdən dübarə qalxmış bayraq Cavadı gördüm.

Keçdiyim yollar üstə lalə Pişəvəriydi,
Təbrizdə Ərk qalası hələ Pişəvəriydi.
Pişəvəri nəslindən qalan Pişəvəriydi,
Öpdüm Pişəvərini, bayaq Cavadı gördüm.

Allah, necə alıblar dinənlərin canını,
Keçmişlərin canını, dünənlərin canını.
İçmək üçün qan tökən düşmənlərin qanını,
Sabahlara çağırır torpaq, Cavadı gördüm.

Babasının gözüydü, babasının ürəyi,
Obasının özüydü, obasının ürəyi.
Sevməz "çıraq dibinə işıq salmaz" deməyi,
Dibinə işıq salan çıraq Cavadı gördüm.

Üstündə oturduğu taxt sığmayırdı Elə,
Yoxsa on iki yaşlı Şah İsmayıldı elə?!
Ümman gəzir, arxlara sığışmayırdı hələ,
"Balaca Qara Balıq" - qoçaq Cavadı gördüm.

Daha nəyim var mənim, olanı qoyub gəldim,
Allah, balamı tapdım, balamı qoyub gəldim,
Neçə dəfə başına dolanıb, qoyub gəldim,
Bütöv Vətəndi sandım, vallah, Cavadı gördüm.

Qoymazsan haqsız gülə, sən axı haqq olmusan,
İntiqam almaq üçün gör nə sayaq olmusan.
Bir uşağın xətrinə dönüb uşaq olmusan,
Gördüm varsan, gördüm var,
Allah, Cavadı gördüm!

**VƏTƏN, VAXTLI TANI OĞULLARINI...**

Gör anmazın kimdi, ananın kimdi,
Gör qanmazın kimdi, qananın kimdi,
Gör yanmazın kimdi, yananın kimdi,
Vətən, baxıb tanı oğullarını,
Vətən, vaxtlı tanı oğullarını!

Qoy deyim indi də... kimdi onlar da,
Vətən eşqi, Vətən andı onlarda!
Hər arzun, niyyətin cəmdi onlarda,
Vətən, baxtın sanıb oğullarını,
Vətən, vaxtlı tanı oğullarını!

Başları qarışmaz taxt döyüşünə,
Bax, hər birisinin bax, döyüşü, nə?
Yenilməz, yorulmaz, haqq döyüşünə,
Vətən, haqlı sanıb oğullarını,
Vətən, vaxtlı tanı oğullarını!

Onlar döyüşəndə, bil, nə istəyib,
Sənin uğrunda ölmək istəyib.
Adını tarixdən silmək istəyib,
Vətən, çoxu danıb oğullarını,
Vətən, vaxtlı tanı oğullarını!

Kim səni salıbdı elə, bu qədər,
Bu qədər deyilsən, elə, bu qədər!
Kim yeyib haqqını belə, bu qədər,
Vətən, haqqı hanı oğullarının?
Vətən, vaxtlı tanı oğullarını!

Qaramı uduzdun, ağmı uduzdun,
Çox vaxt uduzanda, vaxtı uduzdun.
Çoxdu günahımız, çoxdu, uduzdun,
İtən vaxtın sanıb oğullarını,
Vətən, vaxtlı tanı oğullarını!

Çox yerdə bağlanıb yol-iz baxtından,
Özü də gündüzün gündüz vaxtından.
Azmı salıbdılar Təbriz taxtından,
Vətən, taxtı yanır oğullarının...
Vətən, vaxtlı tanı oğullarını!

Bütöv yaşadığın bir gün olaydı,
Səni böyüklükdə könlüm olaydı!
Torpağı sanı yox, ömrüm olaydı,
Vətən, haqqı sanı oğullarının,
Vətən, vaxtlı tanı oğullarını!

**OTURMAQ HAQQI**

Gərək yuxarı başda adı bəlli otursun,
Odur gizli, otursun, odur bəlli, otursun.

Ağsaqqal oturası bircə stulda belə,
İnanmıram haçansa keçib dəli otursun.

Bu ona bənzəyir ki, arif qalsın ortada,
Hələ də hərif-hərif çaşıb hərif otursun.

Məğlub olan kəslərin baş tərəfdə nə işi,
Gərək zəfər taxtında ancaq qalib otursun.

Heç olarmı... olarmı görərək ayaq üstə,
Həzrəti Məhəmmədi... Həzrət Əli otursun?!

Yəqin ki, deyibdilər hürufilər, sanıram,
Hansı məclisdə isə... "Başda Hərf otursun!"

Bala çıxarmaq üçün yuva qurmayıbmış ha,
Hər quş öz yuvasını sanki qurub, otursun.

O bağban da o bağa girib ki, öz barından
Bir az yeyib otursun, bir az dərib otursun.

Aşiq deyil, adicə aşıq bilib bəlkə də,
Qoymayıblar Qəribi qərib-qərib otursun.

Dağa-daşa düşməsin, o gözələ deyin ki,
Ürəyimin başında edim tərif, otursun.

Heç otura-otura evmi ucaltmaq olar,
Bənna odur ki, evi hörüb... hörüb otursun.

Yoldadı bax, görürsən, günəş səhərdən bəri,
Yorulubdu o ki var, durub Qürub... otursun.

Gördüm ki, qalxıb verib Allah yerini Sözə,
Mən də qalxdım yerimdən, Allah gəlib otursun!

**SULAR**

Haraya axmır ki... haracan axır,
Görəsən ay Allah, bu axar sular?
Köməyə yetməyin xiffətin çəkir,
Həsrət qalmayıbdı vara ha, sular!

Sevir ana yurdun daş-torpağını,
Evin gur işığı, şöy çırağımı?
Yaxşı tanıyıram İrəm bağını,
Bağbanlıq eyləyir bu bağa, sular!

Yaman xoşu gəlir sözümdən mənim,
İllah da çaldığım sazımdan mənim!
Əyilib öp, deyər üzümdən mənim,
Məni ondan sonra buraxar sular!

Suların sirrini gəz, nəsə, ara,
Özünü də axtar, gəz, nəsən, ara!
Elə yer varmı ki, görəsən ora,
Varmaya, ha sular, vara, ha sular?!

Haqdan yaranıbdı, haqdan enibdi,
Oddu, əllərində odlar sönübdü.
Hardasa dənizə, çaya dönübdü,
Hardasa çeşməyə, bulağa, sular...

Yarın sözlərinə baxmağı sevər,
Çox sola burulmaz, bax, sağı sevər.
Yar olan tərəfdən axmağı sevər,
Onunçün tələsər, gur axar sular.

Göy şəfəqlə qonşu, şəfəqlər göylə,
Sayrışmayır yalnız şəfəqlər göydə.
Yarışıb günəşin şəfəqləriylə,
Sayrışar... sayrışar... bir axar sular!

Tanrının işığı, nuru gözündə,
Duru camalında, duru üzündə.
Öz şahlıq taxtını qurub özündə,
Qul olan kəslərə var ağa sular!

Hərdən Lələm olub yetişər heyə,
Hərdən kərəm qılıb dönər sevgiyə.
Barat çox boş-bekar qalmasın deyə,
Süzülər bir az da varağa, sular!

**MƏNİ BAĞIŞLAYIN**

Məni bağışlayın məni sevənlər,
Başım zaman-zaman qarışıq olub.
Məni tutan özgə qarğışı deyil,
Özcə nadanlığım-qarğışım olub.

Mənə nə olubsa bəlkə də elə,
Adam olduğumun üzündən olub.
Həmişə başıma düşən daşların,
Həmişə yekəsi özümdən olub.

Heç belə almazdım öyüdü, bilsəm,
Vaxtında gedərdim bir ayrı "dərsə".
Bir az ərkəsöyün böyüdülmüşəm,
Elə uşaqlıqdan
tərs oğlu tərsəm!

Elə bil yaşamır, ütələnirəm,
Daim başqasının sorağındayam.
Mənə yüyürəni itələyirəm,
Məndən qaçanları qucaqlayıram.

Məşğulam bir özgə "sevişmək" ilə,
Özümə "səhvini qan", deyəmmirəm.
Görən nə tapmışam çor demək ilən,
Sanki can deyənə can deyəmmirəm.

Mən buyam, o köhnə "Əhmədi-Biqəm",
Özümdən nəsə baş aça bilmirəm.
Bəlkə sevgilərə layiq deyiləm,
Bütün nifrətlərə necə?
Bilmirəm!

***2019***